KİTABİ-DƏDƏ QORQUD VƏ *BEOVULF* DASTANLARINDA MİFİK ÖLÜMSÜZLÜK ANLAMI

ABBASƏLİ ƏHMƏDOĞLU (ARAZ)
AZƏRBAYCAN DİLLƏR
UNİVERSİTETİ ASPİRANTI

MAY 2007

The Concept of Mythic Immortality in *the Book of Dede Korkut* and *Beowulf*

Abstract

The focus of this research is to verify the significance of mythology and mythic treasures to pave a way for finding an answer to human quest for immortality through a mythological approach to the two world literature epic masterpieces: *the Book of Dede Korkut* and *Beowulf*. The final goal of the author is to illustrate and illuminate multitudes of common points among western and eastern cultures, in spite of some minimal differences. And to approve that those minimal differences are just to determine identities and to create opportunities for human beings to study humanity from different points of view.

Lev Tolstoy Anna Karenina kitabını bu söz ilə başlayır: "Xoşbəxt ailələr hamisi biri-birinə bənzəyir; hər qarabaxt ailə isə öz yolu ilə qarabaxtdır." Xoşbətlik bir universal anlamdır və heç bir fəlsəfi tərif və açıqlaması olmadan hamı onu anlayıb xoşbəxtliyə çatmağa çalışır. Digər tərəfdən hər xalqın, bir ailə kimi, öz qarabaxtlığı və onunla qarşılaşma yolu var. Bu yol xalqın taleyi, yaddaşı, yaşayış yolu, dünyagörüşü və qavrayışı, hər xalqın varlığı və onu isbat edən kimliyidir.

Yer üzündəki insan bütün tarix boyu öz yaşayışı və varlığı haqqında bir sıra böyük problemlər ilə üzləşib onları araşdırmağa çalışmışdır. Bu çalışmalar özünü eyni anlam və qavrayış daşıyan motivlər və arxetiplər sistemində formalaşdırmışdır. C. G. Yung bu təkrar olunan arxetipləri

“toplumsal vicdan, yaxud Collective uncounscious” [1] adlandırmış. Bu arxetiplər eyni anlam daşısalar da onların sistemi ya necə formalşması təkrar olunmur. Başqa sözlə, arxetiplərin yarandığı coğrafiya, mühit, xalq, zaman, təməlquruluş, və ədəbiyyat dili onları hər xalqın öz yaddaşı və şünasnaməsinə çevirmişdir. Bu deməkdir ki hər bir yaradıcı xalq öz yaradıcılıq gücünə görə dünyada tanına bilir. Amma bu tanışlıq və dünya səviyəli ad-san qazanmaq üçün birinci addımda inasan özünü və özlüyünü dərin araşdırıb tanımalıdır. Bu yol da bilginin başqa sahələrində olduğu kimi kökdən başlanmalıdır, və mifik düşüncələr dünyası bu yolun ən uyğun başlanqıcı ola bilər. Amerikali filosof və mifoloq alim, Joseph Campbell, bu barədə yaxşı fikirləri var:

> Sivilizasiyaların qalxıb düşməsi tarixin uzun və geniş yolu boyu onların arxalandığı mifik ulların bütövlüyü və birləşməsi funksiyasıdır; çünki zorbalıq yox bəlkə könüllü olmaq sivilizasiyanı hərəkətə gətirən, tikici, və formasını dəyişdirəndir. Mifologiya ulu simvollardan oluşan bir yığıcam orqanizasiyadır ki onunla könüllər duyğulanıb bir hədəfə doğru yönəlir. Ondan əmələ gələn sav ürəkdən ürəyə beyin yolu ilə atılır, və harada ki beyin qane olmayıb sav keçə bilmir. O halda yaşayış ləms olunmur. Onlara ki yerli mifologiya işləyir, həm ictimayla dilbirlik, həmdə bütün dünyayla bir harmoni təcrübəsi var. Amma onlara ki bu güclənmiş əlamətlər daha işləmir – ya işləsə də tərs nəticə verir – sözsüzki yerli ictima toxuntusundan, və yaşamlarına “məna” axtarışı mübarizəsindən iraqda qalmalı olacaqlar. İctimaii patern ya nümunəyə zorakılıqla yerləşdirilən bu adam yaşarkən ölü bir heykəl şəkilinə çeviriləcək; və əgər bir sivilizasiyanın gözəgələn sayda üyələri bu tərifdə olsalar, heç bir dönüş yolu olamayan bir yol gediləcək. Mifologiyanın başqa ən önəmli və ən həyati bir funksiyası var, o da hər bir adamı *a)* özü ilə (mikrokosm), *b)* fərhəngi ya kulturu ilə

(mezokosm), *c)* dünyayla (makrokosm), və *d)* ürəklərdə qorxusu olan sirlərin sonu ilə ki həm özündən ötədə həm içində və hər şeydədir, dilbirlik və inteqrasiya yaradıb birləşdirməkdir.[2]

Yaşayış fəlsəfəsi sorularından çox önəmli birsi *ölümsüzlük və ona necə çatmaq* ola bilər. Bu soruya filosoflar, din alimləri, əxlaqiyyat, ilahiyyat, və digər elmlərin ixtisasçıları öz uzmanlığı ilə araşdırıb cavab tapmaq istəyiblər, amma ədəbiyyatçıların da öz yolları olmuşdur. Bu yolda zaman özü də ən böyük müəllim və yardımçı olmuşdur. Misal olaraq, Latin xalqı bu gün yer üzündə yaşamır, amma Latin dili və klassik ədəbiyyatı dünya varkən olacaq. Bu ölümsüzlük ancaq bircə yol ilə əldə edilmişdir: olanüstü ağıl və bilgi ilə. Latinca buna *sapientia* deyilir. Bu olanüstü ağıl hər hansı xalqın yaradıcılığında da gözə çarpırsa, demək o xalq ölümsüzdür. Biz təqdim edilən esse və sonradakı esselərdə qədim Azərbaycan Türk xalqı və Anqlo-Sakson xalqlarını, və onların yaratdığı *Beovulf* və *Kitabi-Dədə Qorqud*`u onların ölümsüzlük kimliyi şünasnaməsi kimi ölümsüzlük mövzusunu bu iki klassik şahəsərde müqayisəli tədqiq edəcəyik.

Sözsüz ki bu iki əsər olduqca zəngin və dəfələrlə çox tanınmış alimlər tərəfindən araşdırılıb təfsir və tənqid olunubdur, amma bu iki əsərin müqayisəli tədqiqi birinci dəfə aparılır. Bəlkə də ona görə bu iş neçə cəhətdən önəmli ola bilər: 1. Klassik ədəbiyyatımız başqa bir açıdan araşdırılır. 2. Gənc nəsil klassik ədəbiyyatla başqa bir açıdan tanış ola bilər. 3. Bəlkə də bu yolla İnglis və Türkdilli xalqlar daha artıq bir-birlərini tanıyıb anlayıb yaxınlaşa bilərlər, bu da bugünkü dünyamızda insanları biri-birinə yaxınlatmağa daha başqa yol açа bilər.

Bu əsərlərdə çeşitli mövzular var: pis-yaxşı, xeyir ilə şər, insanlarla divlər qarşılığı, tarixi faktlar, antropoloji faktlar, əxlaqi düşüncələr, fəlsəfi görüşlər,

psixoloji cəhətlər, doğal faciələr, femminist mövzular, və sa. O üzdən onlara çeşitli yollarla yanaşmaq və araşdırmaq olar, ancaq biz mifoloji yanaşma yolunu uyğun və üstün görüb həmin metodologiya ilə bu iki əsəri tutuşdurub tədqiq edəcəyik. Çünkü onlarda olduqca zəngin arxetiplər, motivlər, simvollar, və təmsillər var.

Kitabi-Dədə Qorqud`da bir müqəddimə və on iki boy vardır. Bu boylardan ancaq biri, *Basat Təpəgözü Öldürdüyü Boy*, bizim fokusumuzda ola bilər, çünki bu boy ilə *Beovulf*`un çoxlu bənzər, element və cəhətləri vardır. Saydığımız mövzulardan başqa bir mövzu da vardır, *Olanüstü ağıl və güc* ya Latinca *sapientia et fortitudo*. Bu mövzu başqa mövzulara dominant və üstündür. Essenin oxucularını mövzu ilə daha tanış etmək üçün *Basat Təpəgözü Öldürdüyü Boy*`un xülasəsi, ədəbiyytı, və üstün mövzusu, sonra *Beovulf*`un xülasəsi, ədəbiyyatı, üstün mövzusu, və sonunda iki əsərin müqayisəli tədqiqi oxuculara təqdim olunacaq.

Basat Təpəgözü Öldürdüyü Boy`un Xülasəsi

Axşam qaranlıq köçərkən düşmən Oğuz ellərinə saldırır. Qaçıb gedərkən Aruz qoca`nın körpə oğlu düşüb qalır. Bir aslan körpəni tapıb öz balası kimi bəsləməyə başlayır. Neçə il keçir. Oğuz elləri öz obalarına qayıdır. Oğuz xan`ın ilxıçısı xəbər gətirir bir aslan meşədən çıxıb at basıb qan somurur, ama yerişi adam kimidir.

Aruz onu öz oğlancığı olduğunu anladır. Bəylər atlara minib mağaraya gedib oğlanı gətirirlər. Amma o qayıdır, yenə gətirirlər, bir neçə dəfə, yenə geri qayıdır. Sonunda Dədə Qorqud gəlib: “Oğlanım, sən insansan,” deyib ona Basat adı verib ondan igidlərlə qalmasını istəyir.

Aruz`un çobanı, Sarı Çoban, Uzun Pınar adlı bir çeşmədə pərilərdən birini tutub zorlayır. Pəri ona deyir: “Bir il sonra məndən əmanətini gəl apar, amma bil ki Oğuzun başına özün zaval gətirdin.” Bir il sonra çoban həmin yerdə qoyunlar ürkdüyündən pınara yaxınlaşıb orda əmanətini alıb həmən sözü pəridən eşidir. Qorxudan o yığanağı sapan daşına tutur, vurduqca böyüyür. Qorxub qaçır sürü dalına düşür.

Bayındır xan igidlərlə gəzməyə çıxıb. Yığanağı görüb təpikləyirlər. Vurduqca böyüyür. Aruz qoca vuranda mahmızı yırtır yığanağı və bir oğlan çıxır, gövdəsi adam təpəsində bir göz. Aruz onu Bayındır xandan istəyib oğlu Basat ilə birlikdə böyütməsini bildirir. Təpəgöz dayəni bir əmişdə sütünü, ikincisində qanını, üçüncüsündə isə canını alır. O böyüdükcə qoşulduğu uşaqların burun qulağını yeyir və getdikcə bu durum eli e`tiraza qaldırır. Aruz qoca Təpəgözü evindən qovur. Bu arada anası onun barmağına bir üzük keçidir ona ox batıb qılınc kəsməsin deyə. O da gedib Salaxana Qayasında yolkəsən olub ordan keçən karvanları soyub adamlarını yeyir.

İgidlər hamısı toplaşıb Salaxa Qayasına gəlirlər, amma hətta qəhrəmanlar qəhrəmanı Qazan xan da bir iş görə bilməyib zəbun olur. Təpəgöz çox qəhrəmanlara qan qusdurur və Basat`ın qardaşını da öldürür. Dədə Qorqud məsləhətə gəlir, Təpəgöz`ə gündə iki adam, beş yüz davar, və iki adam yeməyini bişirməyə kəsim verir; o gündə altmış adam istəmişdi. Xalq sıra ilə hər ev bir oğlunu verir. Növbə gəlib bir xatuna (Qapaqqan kişinin arvadına) çatır, bir oğlun vermişdi, yalnız biri qalırdı. Basat`ın savaşdan qayidmasını eşidib özünü ona yetirir. Basat`ın igidliyindən tərifləyəndən sonra Oğuz elinin başına gələnləri o cümlədən Basat`ın qardaşı ölümünü ona söyləyir. Artıq heç nə Basat`ın fikrini dəyişə bilməz. Basat igidlərdən məsləhət istəyir, amma Qazan xan öz zəbun olmasını boynuna almaqla onu bu

savaşdan vaz keçməyə çağırır. Ata anası ağlayıb yalvarır, yenə də o dönən deyil.

Basat Təpəgözün mağarasına yaxınlaşıb ox atır ona kar salmır. Təpəgöz onu tutub çəkməsi küncünə qoyur. Qocalara tapşırır o quzunu sonra onun üçün bişirsinlər. Basat qocalardan Təpəgö`zün hardan öldürə bilməsini sorub istədiyi cavabı alir: gözündən. Qocalara tapşırır şişi qızdırsınlar. Onu alıb Təpəgözün tək gözünə var gücü ilə soxur. Təpəgöz kor olur amma onu mağarada yaxalamaq istəyir. Basat bir davar dərisində kələklə ordan çıxır. Təpəgöz onu aldatmaq fikrindədir. Bir mağarada xəzanəsi yerini göstərir. Basat içəridəki cəvahiratı görüb bir az çaşır, düz bu dəmdə Təpəgöz damı basat`ın başına uçurur, ama Basat qurtulub Tanrım qurtardı deyir. Basat`a ayrı bir yerdə iki qılınc göstərir, biri tələdir. Basat yenə də qurtulub həmən qılıncla Təpəgö`zün kəlləsini kəsib Oğuz ellərini bu qorxunc ölümdən qurtarır.[3]

Ədəbiyyat

Kitabi-Dədə Qorqud haqqında çoxlu kitablar və esselər yazılıb, amma yenə də çox az iş görülüb. Anar müəllim bu kitabı Azərbaycan həm də başqa Türkdilli xalqlara ana kitab adlandırsa heç də yanılmayıb[4], çünki bu şah əsərin izlərini bütün Türk ədəbiyyatında asanlıqla aydınlatmaq olar. Biz tapa bildiyimiz tənqidçi işlərdə Basat və Təpəgöz haqqında fikirlər yalnız bir neçəsində çeşitli qonulara toxunub. Onlardan biri, Alman mütəfəkkiri H. F. Diez, Kitabi-Dədə Qorqud`u Homer`in Odisseya əsərindən əski bilib Siklopsların bu kitabdan götürməsini düşünür. Bu kitabı İngilis dilinə çevirən Geoffrey Lewis Təpəgöz haqqında yalnız onun çox maraqlı bir xarakter olduğunu düşünür, çünkü o ölüm ləhzəsindən öncə adam əti yemək

həsrətini çəkir.[5] Görkəmli alimlərdən Kamal Abdulla *Gizli Dədə Qorqud* kitabinda "Niyə Təpəgözün bir gözü var?" sorğusuna cavab vermək istərkən onu Polifemlərlə tutuşdurub onların təkgözlü olmasını mifin özəlliyi və qəhrəmana verdiyi yalnız fürsət olduğundan danışır.[6]

Mərhum Prof. Ə. Sultanlı *Kitabi-Dədə Qorqud*`a həsr etdiyi dəyərli tədqiqatında yazırdı: "Burada Basat şüurlu olaraq Təpəgözü öldürməyə gedir. O xalqın, qəbilənin intiqamını almağa gedir. Elə gələn böyük fəlakətin ağırlığını çox yaxşı başa düşür. Atası, anası bilir ki Basat ölümə gedir. Çünki Təpəgözlə alplar alpı Qazan xan bacara bilmir. Beləliklə, Basat xalqın xilaskarı kimi çıxış edir."[7] Yalnız Pr. Sultanlı`nın fikri bəhsimizlə uyğun gəlir. İkinci yerli mifoloq Mirəli Seyid Səlamət yazdığı dəyərli kitabında Basat, təpəgöz, atası Sarı Çoban, və anası su pərisi haqqında geniş tədqiqat aparıb maraqlı fikirlər söyləyibdir. Başqa çox dəyərli fikirlər də var amma bu essede yalnız *olanüstü güc və ağıl* ya Latinca *sapientia et fortitudo* mövzusu araşdırılacaqdır.

Dastanın üstün mövzusu

Birinci addim ən çətindir. Bu məsuliyyəti yaxşı düşünüb üzərimə götürdükdə ulu Tanrını ən böyük arxam bilib işıqlı dünya qapısına açarı yalnız özündən istəmişəm, çünki bu qutsal mirasın düyünlərini gələcək gənc soylara açmaq həqiqət yolunda götürülən ən dəyərli addımlardan sayıla bilər.

Bu boyda başqa temalar da tədqiq olunub dəyərli işlər görmək olar, örnək üçün qadınlar rolu ictimada feminizm metodologiyasıyla, ictimai quruluş mifik erada, tarixi izlər, geopolitika faktları, əxlaqi düşüncələr, rituallar, və

onlarla belə mövzular. Amma bizcə ən dəyərli və ən üstünü qəhrəmanlığa ən gərəkli dəyər və özəllik, *olanüstü güc və ağıl* mövzusudur. Boy qaranlıq qüvvəsi saldırması ilə başlayır: "Dün içində ürkdü, köçdü." Qaranlıq zülmət və cəhalət simvoludur, dünya ədəbiyyatında geniş yayılmış arxetiplərdəndir. Bu cəhalət hücumundan yalnız bir adam qurulur, Basat. Bizim ədəbiyyatda böylə bir kəskin və aydın alleqoriyaya çətin tuş gəlmək olar. Bu qeyri-adi qəhrəmanı ata anası böyüdə bilməz, təbiət özü öncədən ona fikir qılmışdır. Bir aslan onun anası olmalıdır. Niyə bir aslan? Çünki belə ağıllı birisi həm də çox qüdrətli olmalıdır. Dörd sətirdən ibarət bir paraqraf bu bacarıq və Latinca *sublimity* ilə qəhrəmanı dünyaya tanıdır. İki ilə üçüncü paraqrafda birincini arxalayıb daha artıq mövzunu isbat edir. *Kitabi-Dədə Qorqud*`da birinci kərə Dədə Qorqud birini insan səsləyir. M. Seyid Səlamətin fikrinicə bu həmin cəhənnəmin qapısında Cəmşid`in yerə tökdüyü bəşərin ilk toxumu və *qaba ağac*`ın bəslədiyi birinci insan ya həzrəti-Adəm dir.[8] Amma fikrimizcə burada Dədə Qorqud insanı ağlına görə insan hesab edib və ona görədə Basat`a o zamanın ictimasında yaşayıb yaxşı at minmək, və yaxşı igidlərlə eşit olmağı tapşırır. Başqa sözlə Dədə Qorqud insanı ağıl gücü ilə tanıyıb tanıtdırmaq istəyir, və bu gün Fransiz filosofu Kant`ın irəli sürdüyü fikrinin əski və təkrar edilmiş olduğunu isbat edir.

Dördüncü paraqraf antaqonist ya qəhrəmanın haram və zorakılıqla bir pəri və bir adamdan əmələ gəlmiş hərifini tanıdır. Oğuz eli alplar, ərənlər, və igidlər elidir, amma buradakı qəhrəman əlbəttə başqalarına bənzəməməlidir, ona görə də mifik düşüncə ona qarşı iki cinsdən yaranmış, doğa ötəsi, ox keçməz, qılınc kəsməz bir gözü olan divi ona hərif yaradır. Bizim qəhrəman adi şahzdələrlə hərif deyil, Qazan xanları basan həriflə qarşıdır.

Bu boyda qəhrəmanın vəzifəsi iki dəfə təkidlə tapşırılır: Gözə görünməyən su pərisi qeybdən Sarı Çoban`a Oğuzun başına zaval gətirməsi

xəbərini verir. Beləliklə, o Basat`ın vəzifəsini aydınlaşdırır, yəni eli qurtarmaq. Eyni halda başqa bir gərəkli sav da yetirir: Xalqdan bir cahil quyuya bir daş salar, xalq bütövlükdə o daşı quyudan çıxartmalıdır. Burada xalq igidləri yeddi kərə saldırır, amma kar salmır; çünkü bu sorunun başqa çözümü (həlli) var.

Təpəgöz`ün dünyaya gəlişi maraqlıdır. Onun gəlişi dünyaya fəlakət gətirir, bu faktı iki kərə öz anası təkid edir. Hələ yığınaqda ikən başqa heyvanlar ürküb, hətta öz atası ondan qorxub qaçır. Çünki vurduqca böyüyür. Niyə? Bu mifik baxışda cismin və gövdənin böyüməsi ağılın azalması ilə müstəqim nisbəti var. Bu motiv kitabın ayrı yerində də isbatlanır. Qazan xan oğlu, Uruz, atasına deyir: "A bəg baba! Dəvəcə böyümişsən, köşkcə aqlın yoq! Dəpəcə böyümişsən, darıca beynin yoq!" (D-125). Burada Təpəgöz`ün cəhaləti çox maraqlı bir alleqoriya ilə göstərilir. Eyni halda onda olan taysız *fortitudo* ya fiziki güc təkid olunur ya daha doğrusu serum kimi damla-damla oxucunun ya mifik çağdakı insanın damarına təzriq olunur. Bu damlalar getdikcə selə dönməlidir, Təpəgöz elə lap başlanqıcda üç somurmada bir dayənin canını alıb həm nə qədər dəhşətli, həm nə qədər güclü qan içən, və həm də nankor olduğunu heç başqa fikirlərə fürsət verib şək-şübhə yaratmadan isbat edir. Şəhvət şəhvəti gətirir, əkən biçdiyini götürür.

Anası Təpəgöz`ün barmağına bir üzük taxır, ox sancıb qılınc kəsməsin deyə. Burada Təpəgöz ölümsüz varlıqlarla bağlanır. Şəhvətdən yaranan ölümsüz varlıq Şeytandan başqa kim ola bilər? Bu mifik düşüncədə həmin şərrin təcəssümüdür. Amma bu şər, bu şeytan insandan uzaqda deyil, insanın öz vücudundan yaranıb öz süfrəsi başında bir dam altında onunla birgə böyüyür. Niyə onca kişinin içindən yalnız Aruzun mahmızı yığanağı yırtır? Niyə yalnız Aruz onu oğulluğa götürüb Basat ilə birgə bəsləmək niyyətində

olur. Bu bizə hansı dərsi vermək istəyir? Düşmən sənin evinin içindədir, bəlkə hətta ondan da yaxın! Amma bu düşməni niyə Oğuz xalqı elə əvvəldə öldürmür? Niyə onca fürsət verir ki bunca fəlakət gətirsin başına? Bu necə qonaqpərvərlikdir, bu Oğuz xalqında? Bu nə dözümdür! Adam dəhşətə düşüb nifrətə gəlir bu dözümdən.

Təpəgöz Oğuz`dan yeyib böyüdükdən sonra Salaxana Qayasına gedir. Indi o peşəkar yolkəsən və adamyeyəndir. Oğuz qəhrəmanları ona saldırdıqda bir ağac yerdən qopardıb tullayarkən əlli-altmış adamı öldürür. Fiziksəl güc bir daha başqa bir alleqoriya ilə təsvirə çəkilir. Şəhidlərin sayı artır, və bir başqa zirvə (klaymaks) dastanda yaranir. Trajedi zirvəyə qalxır neçənci kərə. Qazan xanın zəbun olması elin zəbun olmasıdır, bunu özü də Basat savaşa hazırlaşıb məsləhət istərkən ona açıqlayır. Başqa sözlə fiziksəl güc və qol qüvvəsi burada kar salmır. Başqa bir güc gərəkliyi təkid olunur. Bu təkid Dədə Qorqud`un gəlişi ilə aydıncasına başlanır. O elin ağsaqqalı, dil biləni, ağıllısı, gənişçisi, və bilicisidir. Hətta Təpəgöz kimi birisi də ona qarşı ehtiramla yanaşıb kəsimini məsləhət bilir. Dədə Qorqud bu kəsim ilə Oğuz xalqına bir fürsət yaradır. O öz ağıllı məsləhəti ilə iki qocanı Təpəgözə xizmətçi seçir, iki adlı-sanlı qocanı . Niyə qocalar? Çünkü igidlər onlar görə bilən işi heç vaxt görə bilmədi və bilməz. Bu savaşda ancaq ağıl gərəkdir, o da olanüstü ağıl.

Basat`ın adi savaşlar (ğəzalar ya İslam dinində kafirlərlə gedən müqəddəs savaş)ından heç ne deyilmir; bəlkə burda bir boşluq və ya boyun bu bölümünün qələmdən düşməsi gözə çarpır ilk öncə. Amma bizə elə gəlir ki bu da əsərin üstün stilini isbat edir, çünkü adi savaşlar bu savaşa qarşı heç deməkdir bu boyda. Burda Basat universal bir qəhrəmana çevirilir, cəhalət ilə savaşıb bəşəriyyəti şərdən qurtaran bir superqəhrəman.

Boyda Basat, Qazan xan, Təpəgöz, və Dədə Qorqud həm nəsr həm də şer dili ilə danışırlar. Basat kömək istəyən qarıcığa bir can bağışlayıb oğlunu ölümdən qurtarır, axı növbət onun tək oğluna çatmışdır. Bu təmsildə Basat`ın başqa önəmli özəllikləri üzə çıxır, səxavət, əliaçıqlıq, və əldən tutma. Burada mifik çağdakı xalqımızın ictimai şüuru da göstərilir. Onlar xalqı ölümdən qurtarmaq üçün həm mal vergisi (gündə beş yüz davar) həm də can vergisi (gündə iki adam) ilə razılaşırlar. Mifik dövrdə belə bir yüksək səviyədə milli şüur doğrudan da düşündürücü və ibrət olmalıdır.

Bu essenin ən önəmli və santral arxetipi gözdür. Başqa xalqlarda olduğu kimi bizdə də göz anlayış və düşünmə aracı (vasitəsi)dir. Bu gönkü dilimizdə olan deyimlər buna isbatdır. "Görürsənmi ne deyir?" həmin "Başa düşürsənmi nə deyir?" deməkdir. Cavabı da "Hə, görürəm" deyimindən ibarətdir. "Gör bir nələr çəkirəm!", "Gör bir nə xəbər", "görüb götürmək", və çoxlu bu tipdə başqa deyimlər də var. Ya xud dəcəl uşaqlar analarını çox incidəndə anaları "Vay sənin görüm gözün çıxsın (tökülsün)" deyimi ilə qarğıyarlar. Niyə gözlərin yox gözün? Çünnkü bu söz Təpəgöz`ün elimzidə uşaqlıq çağını canlandırır. Bu günkü dəcəl uşaqlar həmin uşaq Təpəgöz`ün təcəssümüdür. Biz bu qarğışı eynən Təpəgöz`ün dilindən eşidirik. Niyə Təpəgöz onca narahatdır gözü çıxandan sonra? Təpəgöz`un o bircə gözü varkən Basat`ı tutub çəkməsinin küncünə salır, Basat onun gözündə Oğuzdan gəlmiş bir "türfəndə quzu"dur. Rahatlıqdan yeyib içib gündüzlər də yatır. Kor olduqdan sonra o Basat`a qarşı çox zəifləyir. Bu zəiflik nədəndir? Cismləri dəyişməyib. Basat ona qarşı milçəklərdən də zəifdir. Amma indi Təpəgöz`ü zəbun edib. Təpəgöz`ün acıyıb yanmasını indi aydınca başa düşmək olur.

Basat təpəgöz`ün ölümcül yerini qocalardan surub özü öz əli ilə doğrunu öyrənir. "Ehtiyat igidin yaraşığıdır," deyiblər. Qılınc ilə yox, ocaqda qızışan

kabab şişilə onun gözü həlak olur. Təpəgöz ilə insan arasında ortaq bir zad yalnız onun ətdən olan gözüdür, və onca zəif və ölümcül. "Təpəgöz`ün gözü həlak oldu" deyəndə doğrudan da onun ölümcül parçası ölür. Qalan ölümsüz parçalardır, yalnız böyük bir gövdə. O bu ət parçasını atasından irs aparmışdı və onun gözü atası kimi zəif idi. Bu zəiflik ağıl zəifliyidir. Əslində atası da o mındar işi görəndə şəhvətdən kor olmuşdu. Demək olar Təpəgöz buna görə təkgözlü yaranır ki Basat kimi bir superqəhrəmanla qarşılaşanda göz ya həmin ağıl və düşüncənin üstünlüyü bu boy vasitəsi ilə bəşəriyyətə sabit oluna. Basat`ın indi iki gözü var və bütün kələkləri oxuyur. Onun zəfəri yalnız onun düşüncə üstünlüyündədir. Boyun sonunda Basat üç kərə olanüstü ağıl və zəkasını isbat edir, amma heç birində qürur onu kor etmir; bəlkə öz zəfərini Tanrıdan və kəskin ölümdən qurtulmasını da Ondan bilir.

Basat yalnız ağıl gücü ilə kəskin ölümdən qurtulub xalqı da qurtarır. Burada dərin bir anlam var: "Bizim xlqımıza görə bir qəhrəmanın ölümsüzlüyü xalqın ölümsüzlüyündən asılıdır, xalq yaşayırsa qəhrəmanı da yaşayır. Onda həm xalq həm də qəhrəmanı ölümsüzdür. Bu ölümsüzlüyün rəmzi bəlkə də uyğun bir zəminədəndir və bu zəminə belə ölümsüz bir ədəbiyyatdan başqa nə ola bilər ki?

Beovulf`un Xülasəsi

Qədim İngilis ədəbiyyatının ən parlaq şah əsəri, Anqlo-Saksonlardan qalmış bu əsərdə əski çağlardakı Danimarka`nın kralı, Hrothgar, Heorot adlı bir cəlallı saray tikdirmişdi. Bu sarayın içi işıq dünya, bayırı isə qaranlıq dünya idi. Sarayın içində şənlik məclisləri qurulur, şer və mahnı oxunur, eləki burdan çəng musiqisi və gülüş qəhqəhələri qaranlıqlarda yaşayan Qrendeli dəli edir. Qrendel dözə bilməyib gecə ilə Heorot`a saldırıb on-iki

adamı partaxlayır. Bu dəhşət neçə gecə təkrar olur. Çarasız qalan Hrothgar dostları olan Geats ellərindən qəhrəman Beovulf`u köməyə çağırır. Beovulf səs verib yardıma gəlir, və öz dolqun başarıqlı danışıqları ilə olanüstü birisini isbat edir. Qrendel`ə heç nə kar salmırdı, nə qılınc, nə də ox. Beovulf onun sağ qolunu çəkib üzür və Qrendel ancaq canını qurtqrır. Hrothgar Beovulf`a və yoldaşlarına çoxlu qızıl və başqa dəyərli hədyələr verir. Heorot`u tərk etmək istəyən gecə, Qrendel`in anası saldırıb intiqam üçün kralın ən əziz dostu, gənişçisi, sağ əli, sağ qolu olan, Aeschere`i öldürür. Kral yoldaşı ölümünü eşidib dünyadan küsüb bir otaqda ağlamağa başlayır. Beovulf ona "Kişi yoldaşına ağlamaz, intiqam alar," deyir.

Beovulf sabahısı qaranlıq batlaqlarda dərin göllərin dibində yaşayan Qrendel`in anasını tapmağa yola düşür. Bu yerlərin qorxusundan kralın bütün adamları ordan qaçır, yalnız Beovulf və onun yoldaşları qalır. Beovulf dərin suya cumub su altı bir mağarada Qrendel`i yuxuda tapıb başını kəsir. Sonra onun anası yumulur, Beovulf ilə tutuşub dalaşırlar, biri birinə ağır zərbələrlə saldırır, amma Beovulf`un qılıncı ona kar salmır. Beovulf halsız suyun tərkinə düşür, ayılarkən qəbzəsində devlər əlyazması olan bir qılınc görüb o qılıncla Qrendel`in anasının başını kəsir. Amma qılınc əriyib yalnız qəbzəsi qalır. Beovulf o qəbzəni və Qrendel`in başını sudan çıxardır. Təkcə Qrendel`in başını neçə adam apara bilmirdi. Bu döyüşdən sonra, qabaqkı kimi, onun olanüstü ağli, bacarığı, və zəkası haqqında həm kral danışır həm kraliçə, həmdə aşıqlar dəstanlar qoşur. Heorot və Dnimarkanı qurtarıb çoxlu dəyərli hədyələr alandan sonra Beovulf yoldaşları ilə vətəninə dönüb əlli ildən sonra krallığa çatır.

Dastan boyu yaxşı və pis kralların özəllikləri və xaraktərlərindən təmsillər deyilir. Yaxşı kral lap gənc çağlarından belə igid, əliaçıq, igidləri və xalqını qoruyan qorxmaz bir kimsə olmalıdır. Beovulf`da bu özəlliklərin hamısı var.

Amma yeni bir düşmən xalqına qarşı törədilir. Əsgərlərdən biri şəhərdən bayırda yaşayan əjdahanın xəzanəsinə varıb bir qızıl güldan oğurlayır. Əjdaha da bilib gecəsi şəhərə saldırır. Əjdaha od yağdırır və çoxlu qırğın olur. Beovulf qocaldığına baxmayaraq xalqını qorumaq üçün əjdahanın mağarasına yollanır. Bu savaşda da igidlər hamısı qorxudan qaçarkən gənc Viglaf onları qınayır, amma nəisə ikisi yalqız qalırlar bu çətin döyüşdə. Beovulf bu savaşdan bir üşünürdü, hər halda əjdahanı ağır bir mübarizədən sonra öldürə bilir. Amma bu onun son savaşı olur. Gənc Viglaf xalqı toplayıb dəniz qırağında sevgili krallarına tayı görünməmiş bir törən tutdurur. Lap uzaqlardan görünə bilən çox uca bir tonqal qurub Beowulf`u yandırırlar, və ona ağlaşıb vidalaşarkən əjdahadan aldığı o böyüklükdə xəzanəni dənizə tökdürürlər.

Ədəbiyyat

Bir sıra tənqidçilər çeşidli özəlliklərinə görə Beovulf`u universallaşdımaq fikri ilə çalışmaq istəyiblər. E. Talbot Donaldson ictimada qohumların arasında olan sıx ilişginin əski İngilis poeziyasında böyük əhəmiyyətindən danışır. O qisasın önəmi və vergi (wergild) almaq – bu German sözü ilə Türk sözünün oxşarlığı düşündürücüdür – gərəkliyini; o zamankı ədəbiyyatda ictimai ilişgilərin hansı dərəcədə olduğunu vurğulayır.[9] İntiqam hissi yaratdığı faciələrin qarşısını almaq üçün qızlarını o biri tərəfin kralı ilə və tərsinə evləndirib ərə verməklə ardıcıl intiqamı dayandırmaq ənənəyə çevirilmişdir. Qrendel`in anası və əjdaha doğal ictimadan iraq və ayrı olduqlarına baxmayaraq onlar intiqam almağa qalxır, və bu olanüstü savaş və olanüstü qəhrəman tələb edir.

Başqa bir tənqidçi, Fr. Klaeber, xristiyanlıq və xristiyan boyalarını bu poemada isbat etməyə çalışır. Onun fikricə Qrendel adam görkəmli bir div olsa da əslində qaranlıq ilə şərrin və hətta xristiyanlıqdakı şeytanın təcəssümüdür. Çünkü bu poemada Qrendel`ə bu ləqəblər verilir: "bəşəriyyətin düşməni", "Tanrı`nın düşməni", "cəhənnəmdəki şeytan", və "cəhənnəm-qulu". O Qabil`in müxənnəs törəməsidir. O və anasının etdikləri eyni şeytanın etdiklərridir. Üçüncü düşmən olan əjdaha xristiyanlıq ənənəsində şeytanın eyni təcəssümüdür. Hər halda belə bir düşmənlərlə başqa xalqlar və öz xalqını qurtarmaq üçün öz canından keçmək ancaq Həzrəti İsa kimi bir qəhrəmanın əlindən gələ bilər.[10]

Sayılan tənqidçilərdən biri də J. R. R. Tolkien`dir. Bu alim demək olar əsəri daha bilimsəl və məntiqli şəkildə araşdırmışdır. O *Beovulf*`un bədii quruluş və tekstində olan balans ilə simmetrini açıqlayır. Tolkien bir uyğun allegoria işlədərək göstərir ki necə tenqidçilər əsəri tikə-parça halda tənqid edərək onun əsli savını (mesajını) gözdən qaçırıblar. Bu böyük alimin fikrincə *Beovulf*`un əsli savı universal bir faktı çatdırmaqdır: bəşərin şər qarşısındaki zəifliyi, yalnız onlar ki Beovulf kimi qüdrətli, güclü, zəkalı, və ağıllıdır. O artırır ki bu əsərin yazıçısı əski kafır Anqlo-Sakson ədəbiyyatı dəyərləri ilə xristiyan dəyirlərin bir əsərdə toplayıb. Qədim dəyərləri o dövrdə qoruya bilmək ancaq çox böyük və hər iki dövrün dəyərləri və bilgisi ilə tanış olan bir alim bu işi o həddə görə bilərmiş. Tolkien deyir ki əsərin sonunda yazıçı əjdahanı Beovulf`un qarşısına gətirməkdə çox düzgün bir iş gürüb, çünkü o əzəmətdə superqəhrəmana bir Danimarkalı ya İsveçrəli bir şahzadə ilə savaş heç yaraşmazdı və heçdə onu bir universal qəhrəmana çevirə bilməzdi. Yalnız bu devlər və əjdahalara görə dastan belə önəmli və əzəmətli olmuşdur.[11]

Kenneth Sisam, Tolkien ilə tam razılaşır, amma epikdə olan artistik balansı redd edir. Eyni halda o Tolkien`in bu fikri ilə ki *Beovulf*`un ana mövzusu bu dünyada amansız və ümidsiz bir savaşdır bəşər ilə şər arasında, razılaşmır. Onun fikrincə şair Beovulf`u həyatda olan ən güclü adam tanıtdırmaq istəyir, eləki dastan başlanırkən Beovulf bütöv bir qəhrəmandır.[12]

R. E. Kaske öndəki tənqidçilərin fikrini tənqid edərək az-çox Tolkien`in bəzi fikirləri ilə razılaşır. O bu dastanı düzgün tənqid etmək üçün ideal bir qəhrəman haqqında ən geniş yayılmış düşüncə, Latincə *sapientia et fortitudo* ya olanüstü fiziksəl güc və ağıl, ilə yanaşmaq gərəkdiyini söyləyir. Eyni halda o dastanı analiz etmək üçün bu ideanı əsas götürmək başqa təməl temaların varlığını danmaq deyil. [13]

Beovulf`da üstün mövzu

R. E. Kaske irəli sürdüyü fikir bu essenin mübahisəsində təməl tema kimi aparılacaq, çünkü birinci bu ki əsərin şairi *sapientia et fortitudo* düşüncəsi ilə olduqca tanış imiş qəhrəmanlıq və mifik düşüncə dövrünə yaxın bir çağda yaşadığı üçün. Bundan başqa poemanın tekstində defelərlə qəhrəmanın gücü və ağlını istisnalardan olduğuna örnəklər və şahidlər var, bunlardan bir neçəsinə işarə etmək Kaske`ni haxlamağa bizi qane edə bilər. Elə həmən bu örnəklər üçün də o bu düşüncəni poemanın üstün və təməl teması nəzərdə tutmuşdu.

Poemanın birinci bölümü (1 – 2199-cu sətirlər) arasında simmetrik halda beş dəfə Beovulf`un bu özəlliklərinə işarə olunub əsərin yöksək stilini də göstərir. Birincisi 826-cı sətirdə, Qrendel`i öldürdükdən həmən sonra, şair Beovulf`u təriflərkən onu "ağıllı və ürəkli" adlandırır. İkincisi kraliçə ona

poemanın 1219-cu sətrində böylə məsləhət verir: “Özünü öz qüdrətinlə məşhur elə, və bu igidləri öz ağıllı məsləhətlərindən məhrum etmə.” Üçüncüsü kral Hrothgar`ın dediyidir: “Sənin gücünün hamısı bundadır ki sən həmişə ağlın ilə qəlbinə höküm sürürsən.” (1705 – 6-cı sətirlər). Dördüncü yenə kralın bənzər bir ifadəsidir: “Sənin gücün çox böyük, fikrin çox yetgin, və sözlərin çox ağıllıdır,” (1844 – 45-ci sətirlər), Qrendel`in anası ölümünə görə şənlikləri sonunda. Buracan simmetri açıq görünür. Hər bir savaşdan öncə və sonra tematik klaymaks olaraq bu işarələri şair bacarıqla işlədir. Beşinci və ən qabarıq söz birinci bölümün sonlarında (2180 – 83cü sətirlər) Beovulf öz ölkəsinə dönəndən sonra kral Hygelac`ın hüzurunda söylənir: “Onda Tanrı`nın verdiyi çox böyük bir bacarıq var, bütün bəşəriyyətin gücü ondadır, cəsur birisi kimidir savaş meydanında.”

Sayılan işarələr Beovulf`un danışıqları və əməlləri ilə arxalanır. Poemanın ikinci bölümü bir az daha dolaşıqdır, çünkü Beovulf əjdaha ilə savaşa girməkdən üşünürdü. Eyni halda, əjdahanın xəzanəsi də qəhrəmanın xarakterini iki cənbədən suala çəkə bilər: sərvət iştahasi və şöhrət həvəsi. Bu ideanı Goldsmith, Leyerle, və başqa tənqidçilər irəli sürür. Amma şair poemanın birinci bölümündə problemin həllinə işarə vermişdir, Beovulf Qrendel`in anasını öldürdükdən sonra orda olan xəzanədən yalnız Qrendel`in kəlləsi və qılıncın qəbzəsin gətirir; bir haldaki orda çoxlu dəyərli qənimətlər vardı. Bu üzdən qəhrəmanın olanüstü ağıl və gücü heç də gümana qalmır, və sonuncu savaş onun həm bir krala layiq gücü həmdə ağlını göstərmək üçün çox uyğun bir bədii sənət aracıdır. Demək bu əsərdə dominant mövzulardan biri *sapientia et fortitudo* olduğu aydıncasına isbat olunur.

Kitabi-Dədə Qorqud və Beovulf`un müqayisəli tədqiqi

Ölümsüzlüyə əl tapmaq arxetipi və vasitələr ilə yollrın bənzərliyi bu iki dastanı birləşdirən birinci dirəkdir. Eyni halda qəhrəmanlıq, hədəflər, onlardan əldə edilən nəticələr normal olaraq fərqlidir. Bu fərqli cəhətlər heç də insanları dünya üzündə bir-birindən uzaqlaşdırmır, bəlkə bu bizim dünyagörüşümüz və onun qavrayışını genişləndirib aydınlatmaq qabiliyyətindədir. Həm Basat həm də Beovulf ölümsüzlük sorağındadır, lakin onların fəlsəfi baxış və dünyagörüşləri fərqli olduğuna görə çalışların nəticəsi və təzahürü fərqlənir.

Dədə Qorqud mifik dünyasında ölüm hər zadın sonu deməkdir. *Beovulf* fəlsəfəsi də xristianlıqdan öncə eynidir. Burada qəhrəman çalışır dünyada varkən ad-san qazanıb xalqın yaddaşından silinib unudulmasın, qəhrəman özü ölsə də adı-sanı qalsın. Bu ölümsüzlük *Beovulf* analiz və tənqidində İngilis dilicə "pagan immortality" ya "kafir ölümsüzlüyü" adlanır, çünkü bu ictimai fəzilət və moral dəyər məsihiyyətdən öncə ictimada hakimdir. Amma Xristianlıqdan sonra dünya ölüm ilə tükənmir, başqa bir dünya da var ki bundan daha dəyərli və əbədidir. O dünya ölümsüzlük dünyasıdır. Ora əli dolu getmək üçün bu dünyada insan xeyrxah işlər görməlidir. Beovulf onu da bacara bilir, o öz canından keçərək həm Danimarkalıları həm də öz xalqını ölümdən, zülmdən, və dəhşətdən qurtarır. Beovulf özünü həzrəti İsa kimi ölümsüzləşdirir, və onda əjdaha ilə savaşda sözün əsl mənasında ölmür. O başqa cəhətlərdən də İsa peyğəmbərə bənzəyir, danışıqda şox bacarıqlı, əli açılıqda, mehribanlıqda, ağıl və zəkasında. Bu cəhətlərə malik olan bir qəhrəman Həzrəti İsa kimi kamil bir superqəhrəmandır.

Amma Dədə Qorqud dünyasında xalq ilə qəhrəmanın diriliyi bir-birindən asılıdır. Basat yaxşı bilir onun xalqa nə önəmi var. O Dədə Qorqud`un seçdiyi yalnız superqəhrmandır ki qol-bilək yox ağıl gücü ilə xalqı ölümdən qurtarmalıdır. Bu dastanda taysız və ölümsüz fiziksəl qüvvə taysız amma ölümcül bir ağıl gücü ilə qarşı qarşıya qoyulur. Basat`ın iki qoca adamı var, bu qocalar fiziksəl gücün son dərəcədə zəifliyi və tərsinə ağıl gücünün son dərəcədə qüdrətli olduğunu vurğulayan təmsildir; Basat`ın gövdə xırdalığı Təpəgöz`ə qarşı onun çəkməsinə yerləşməsi ilə təkid olunur. Təpəgöz`ün misilsiz fiziksəl qüdrəti gövdəsi böyüklüyü, ağacı yerdən qoparıb bir atışda altmış adam öldürməsi, və qəhrəmanların hamısını öldürüb ya zəbun etməsi ilə vurğulanır. Burada ümid yalnız onun ağıl gücünə bağlanıb və doğrudan da işini görür, bu indiki çağımızda bizə çox böyük bir ibrət ola bilər, çünki doğrudan da biz fiziksəl güc baxımından əlimiz demək olar boşdur.

Hər iki dastanda şər qüvvələr gecə qaranlıqda ya insanlar yuxuda ikən saldırır. Gecə, qaranlıq, və zülmət geniş yayılmış qəflət, cəhalət, və nadanlıq simvoludur. Şər qüvvələr qeyri-adi formada divlər və əjdaha göstərisi ilə təcəssüm olunur. Bu qüvvələr ölümsüzləşdirilir. Onlrın ölümsüzlüyü universal bir anlam kimi arxetipləşir, dünyada nə qədər insan var şər qüvvələr də ona qarşı ölümsüz halda yaşayır. Qrendel ilə Təpəgöz ölümsüz, ox sancmaz, və qılınc kəsməzdir. Hərəsində bir zəif nöqtə var: Təpəgöz`ün gözü, Qrendel`in sağ qolu. Təpəgöz və Qrendel`in anası ikisi də öz qılıncı ilə başları kəsilir.

Fərqli cəhətlər də düşündürücüdür. *Beovulf*`da şər qüvvələr ictimadan uzaqda özlərinə məxsus yerlərdə yaşayırlar və bu arada bircür təadul var. yalnız işıqlar dünyasından musiqi ilə şadlıq səsi yüksəlişi, dünya yaranmasından, Nuh`un selindən, və başqa bilgi verici sözlərdən danışanda onları qıcıqlandırır. Amma Dədə Qorqud dünyasında xeyr ilə şər bir yerdə

yaşayır və onlar heç vaxt bir-birindən uzaqda deyil. Bu dünyada insan özü şəri bəsləyib böyüdür. Bu şər qüvvə təkidlə cəhalət və sonsuz iştahdır.

Beovulf`da qəhrəman üç kərə çıxış edir. Hər çıxışdan öncə və sonra onun haqqında poema içində müstəqim işarələr var. Qəhrəmana orada bilavasitə tərifler deyilir. Basat isə bir çıxış edir o da Təpəgöz ilə. Basat`ın fiziksəl gücü yalnız dastanın başlanqıcında göstərilir, bir haldaki, dastanın hamısı onun olanüstü ağıl və zəkası üzərində aparılır. Dastan boyu olayların zirvəsi onun bir dərrakəli və düşüncəli əməli ilə bütövləşir. Bu zirvələrin toplumu Basat`ın zirvədə olduğunu hər bir klaymaksda vurğulayır.

Beovulf həmasəsi sonunda trajediyə dönür, çünkü xalq onun kimi güclü və ağıllı bir superqəhrəmanı itirib, və bu itgini çətin bu tezliklə ödəmək olar. El hamısı toplaşıb tayı misli görünməmiş bir yas töreni tutub matəmlə qəhrəmanı ən böyük tonqal içində yandırırlar. Xalq düşməndən qurtulsada sahabsız matəmlər içində yalqız buraxılır. Amma Basat ölümsüzləşib xalqını da kəsgin ölümdən qurtarır. Dastanın sonu toy bayramla bitir. Ən maraqlı fərqlərdən biri ölümə münasibətdir bu iki mifik dünyada. *Beovulf*`da hətta bir adamın ölümü böyük bir trajediyə dönüb həngamələr qoparır, lakin bizim mifik dünyagörüşümüzdə ölümə növbətə düzülmək var. Nəisə İstalin`in bir sözü burada canlanır, bir adamın ölümü trajedidir milionların isə statistika.[14] Bu fərqli cəhətləri bu gün də iki dünya arasında görmək olar. Bu iki dastanı çoxlu başqa cəhətlərdən də tutuşdurmaq olar, amma bu essedə o fürsət ola bilməz.

Arxetiplər, motivlər, və simvollar xalqları bir-birinə bağlayan ortaq tellərdir, çünkü onlar dünya boyu ictimai vicdandan oluşub ictimai vicdanı törədir. Amma bu arxetiplər xalqlarda hərəsi özünüməxsus yollar ilə formalaşıb qavranılır. Bu fərqli yollar xalqların yaddaşında qalıb yerliləşib hər xalqın özünəməxsus pasportu ya kimliyinə çevirilir. Öz kimliyindən

uzaq düşən hər bir xalq hər nəyi itirməsə də tərəziyə qoymağa heç nəyi qalmayır.

Mifologiya ona görə belə dəyər qazanır ki insanların yaşamında məna axtarışı uğrunda mübarizəsi, yaşam üçün aydın və mənalı hədəf, ictima ilə integrasiya və bütün dünya xalqları içində harmoni yaradıb xalqlara kimlik bağışlayır. Bu kimliyi uluslara bağışlayan dahilər ilə dahi qəhrəmanlar ən böyük və ağır məsuliyyəti öz üzərinə götürdükləri üçün xalqlar da onları heç vaxt unutmaur, beləliklə ən uyğun və normal bir balans yaranır. Bu normallıq hər hansı bir xalq arasında hakimdirsə, orada dünyagürüşü qavramı geniş və insanlar tək-tək noraml düşüncəli və balanslı yaşayırlar. Başqa prismadan bu iki başlı təsir belə dahiyanə əsərlərin yaradıcılarında da öz rolunu oynayır, belə ki bu günkü modern və çağdaş dünyamızda Dədə Qorqud və *Beovulf* un adsız şairi – bəlkə də Beovulf adlı birisi – yaratdıqları ölümsüz əsərlərin sətirləri arasında yaşayıb anılıb sevilir və bu ölümsüz sevgidən zövq alırlar. Çünkü onlar özləri yaratdıqları qəhrəmanlardan qat-qat bu ölümsüzlüyə layiqdirlər.

Qaynaqlar (biblioqrafia):

---

[1] Lansford, Tyler. "*Mythology*." *Microsoft® Encarta®* 2006 [DVD]. Redmond, WA: Microsoft Corporation, 2005.
[2] Campbell, Joseph. *The Masks of God: Creative Mythology*, (London: Souvenir Press Ltd. 1974), 4-5.
[3] *Dede Korkut Kitabı* (metin, sözlük). Çapa hazırlayanı: Muharrem Ergin. – Ankara, 1964.
[4] http://www.azer.com/aiweb/categories/magazine/63_folder/63_articles/63_dadagorgud.html
[5] M. Seyyed Salamat. *An Introduction to the Review of The Book of Dede Korkut*. Tabriz: Ashina Publications, 1999, 31.
[6] Abdulla Kamal. *Gizli Dədə Qorqud*, Bakı, Yazıçı, 1991, -184 - 189.
[7] Əfəndiyey Paşa, *Azərbaycan Şifahi Xalq Ədəbiyyatı*, Ali məktəb üçün dərslik, Bakı, Maarif, 1992, -325.
[8] M. Seyyed Salamat. *An Introduction to the Review of The Book of Dede Korkut*. Tabriz: Ashina Publications, 1999, 145.
[9] *Beowulf: a Prose Translation: Contexts, Criticism, trans. E. Talbot Donaldson*; ed. Tuso, Joseph, New York: WWW Norton & Company, 1975, 102.
[10] *Həmin*, 104.
[11] *Həmin*, 106 – 113.
[12] *Həmin*, 114 – 117.
[13] *Həmin*, 122.
[14] Knight, Amy. *"Joseph Stalin." Microsoft® Encarta®* 2006 [DVD]. Redmond, WA: Microsoft Corporation, 2005.